| | | |
|---|---|---|
| **Ümumi məlumat** | **Fənnin adı, kodu və kreditlərin sayı** | AZLL209 Azərbaycan ədəbiyyatı tarixi-5<br>3 kredit 6 AKTS |
| | **Departament** | Dillər və ədəbiyyatlar |
| | **Proqram (bakalavr, magistr)** | Bakalavr |
| | **Tədris semestri** | 2025/2026-cı tədris ilinin payız semestri |
| | **Fənni tədris edən müəllim (lər)** | Fil.ü.f.d. Röya Mürşüdova |
| | **E-mail:** | roya.meftunqizi@mail.ru |
| | **Telefon:** | |
| | **Mühazirə otağı/Cədvəl** | |
| | **Konsultasiya vaxtı** | Tələbələrlə razılaşdırılmış vaxtda |
| **Prerekvizitlər** | AZLL 208 | |
| **Tədris dili** | Azərbaycan | |
| **Fənnin növü (məcburi, seçmə)** | Məcburi | |
| **Dərsliklər və əlavə ədəbiyyat** | 1 Əhmədov B. Azərbaycan ədəbiyyatı tarixi, III cilddə, I cild. (Dərslik).Bakı, 2010<br>2. Əhmədov B. Azərbaycan ədəbiyyatı tarixi, III cilddə, II cild. (Dərslik).Bakı, 2010<br>3. Əhmədov B. XX yüzil Azərbaycan ədəbiyyatı Mərhələlər, İstiqamətlər, Problemlər. B., "Elm və təhsil", .2015.<br>4.Müasir Azərbaycan ədəbiyyatı. 2 cilddə, II cild, B.,BDU nəşri, 2004<br>5. Mir Cəlal, Firudin Hüseynov. XX əsr Azərbaycan ədəbiyyatı tarixi ( dərslik), Maarif nəşriyyatı, Bakı, 1982, 428 s.<br>6.Qarayev Y.Azərbaycan ədəbiyyatı: XIX və XX yüzillər.B.,Elm,2002.<br>7.Qarayev Y.Realizm: sənət və həqiqət.B.,1980.<br>8.Cəfərov N. Klassiklərdən müasirlərə.B.,Çaşoğlu,2004.<br><br>**İnternet resursları:**<br>1.www. kitabxana.net- elektron kitabxana.<br>2. www.google.az- universal axtarış portalı.<br>3. www.anl.az.-Milli kitabxana<br>4. www.kulis.az.-azəridilli mədəniyyət və ədəbiyyat saytı.<br>5. www.sim-sim.az azəridilli ədəbiyyat saytı.<br>6. www.kaspi.az saytı.<br>7. www.manera.az-ədəbiyyat və mədəniyyət portalı<br>8. www senet.az- ədəbiyyat və sənət dərgisi | |
| **Tədris metodları** | Mühazirə | + |
| | Qrup müzakirəsi | + |
| | İnteraktiv | + |

| | | | |
|---|---|---|---|
| **Qiymətləndirmə** | **Komponentləri** | **Tarix/son müddət** | **Faiz (%)** |
| | Aralıq imtahanı | | 30 |
| | Fəallıq | | 5 |
| | Quiz-1 | | 5 |
| | Quiz-2 | | 10 |

| | | | |
|---|---|---|---|
| | Quiz-3 | | 5 |
| | Final imtahanı | | 40 |
| | Davamiyyət | | 5 |
| | Yekun | | 100 |
| **Kursun təsviri** | Azərbaycan ədəbiyyatı-5 kursunda XX əsrin 20-ci illərindən 60-cı illərə qədər ədəbiyyatımızın keçdiyi zəngin və mürəkkəb tarixi dövr, xalqımızın bədii təfəkkür və mənəviyyat tarixinin tədrisi nəzərdə tutulmuşdur. Ədəbiyyatın inkişafı, onun bədii təfəkkür sistemi kimi zənginləşməsi, yeni janr və üslub tipilogiyasının,metod və müxtəlif yaradıcılıq üsullarının, məktəb və konsepsiyaların dialektik əlaqəsi XX əsrin ədəbi mərhələlərinin başlıca xüsusiyyətlərini təşkil etmişdir. Əsrin inqilabi xarakteri,eyni miqyasda dağıdıcı və yaradıcı tendensiyaları ehtiva etməsi, insanın həyatı,şüuru və davranışlarında durmadan davam edən dəyişmə və çevrilmələr bu dövr ədəbiyyatının başlıca problemlərindəndir. Buna gorə də tədris prosesində Azərbaycanın mədəniyyət tarixində mühüm yeri olan görkəmli sənətkarların ədəbi irsinin bu kontekstdə öyrənilməsi,bir sıra ədəbi əsərlərin təhlili nəzərdə tutulmuşdur. | | |
| **Kursun məqsədi** | XX əsr Azərbaycan ədəbiyyatının təcrübəsini yeni baxışla ümumiləşdirmək, milli ədəbiyyatımızın bu yüzildə qazandığı böyük uğurların, habelə düçar olduğu uğursuzluqların mahiyyətinə varmaq. Ədəbiyyat spesifik bir sahə olduğundan,onun tədrisində məqsəd elmi informasiyanın bolluğundan daha çox,daxili-mənəvi mədəniyyətin və əxlaqi-insani kamilliyin səviyyəsini yüksəltmək olmalıdır. Bədii əsər fərdi şəkildə mənimsənilməli, fərqli zövqləri aşkara çıxarmalı,bədii yaddaşı formalaşdırmalıdır Fənnin tədrisində məqsəd həm də tələbəyə hazır mühakimə əzbərlətmək yox,mühakimə yürütməyi öyrətməkdir. | | |
| **Tədrisin (öyrənmənin) nəticələri** | Kursun sonunda tələbələr aşağıdakıları edə biləcəklər:<br>1. XX əsrin əvvəllərindən 60-cı illərə qədər ədəbiyyatımızın keçdiyi inkişaf yolunu, bu dövrdə yazıb-yaradan yazıçı və şairləri haqqında təsəvvürə malik olacaqlar;<br>2. XX əsrin əvvəllərində yaranan ədəbiyyatının məzmun və mahiyyətini, ədəbiyyat tarixindəki yerini müəyyənləşdirmək və izah etmək bacarığına nail olacaqlar.<br>3. Verilmiş bədii əsərlər üzərində sərbəst təhlil aparmaq bacarığına yiyələnəcəklər;<br>4. XX əsrin əvvəllərində yaranan mətbuat orqanları, onların hər birinin xalqımıın savdlanmasında, dünyagörüşünün yaranmasında və formlaşmasındakı rolları haqqaında dərin və hərtərəfli biliyə sahib olacaqlar.<br>5. XX əsrdə Sovet İttifaqının yaranması ilə Azərbaycanın ictimai-siyasi həyatında baş verən dəyişikliklərin ədəbiyyatda yaratdığı köklü dəyişikliklər nəticəsində formalaşan “Sovet ədəbiyyatı” haqqında məlumata sahib olacaqlar.<br>6. XX əsrin 20-ci illərindən yaranan ədəbi nümunlərin sovet ideologiyasının təsir və təzyiqi ilə formalaşdığını konkret ədəbi nümunələri təhlil etməklə bu dövrün ədəbiyyatı haqqında hərətərəfli təsəvvürə malik olacaqlar. | | |

| | |
|---|---|
| | 7. XX əsrin əvvəllərində 60-cı illərə qədər yazıb yaradan sənətkarların yaradıcılıqlarını mövzu və problematika baxımdan müəyyənləşdirmək bacarığına yiyələnəcəklər. |
| **Qaydalar (Tədris siyasəti və davranış)** | Fəallığa görə veriləcək bal tələbənin müzakirələrdə iştirakına, mətn təhlilində göstərdiyi fəallığa, semetsr boyu hazırladıqları təqdimatlara(prezentasiya), əlavə ədəbiyyatlara göstərdiyi marağa görə veriləcəkdir.<br>Davamiyyət balı semestr boyunca qeydiyyat aparılaraq final imtahanından əvvəl yazılacaqdır. Üzürsüz buraxılan 2 dərs üçün 1 bal çıxılacaq.<br><br>Fənnin tədrisi zamanı verilən ballara aydınlıq gətirsək;<br>**Aralıq imtahanı – 30** imtahanda tələbələrin biliyi test tapşırıqları vasitəsilə yoxlanılır<br>**Fəallıq - 5** Fəallığa görə veriləcək **5** bal tələbənin müzakirələrdə iştirakına, praktik tapşııqların yerinə yetirilməsində göstərdiyi fəallığa, əlavə ədəbiyyatlara göstərdiyi marağa, semetsr boyu hazırladıqları təqdimatlara (prezentasiya) görə veriləcəkdir<br>**Quizlər - 20** tapşırıqlar 5+10+5 semestr ərzində açıq suallar şəklində verilir.<br>**Final imtahanı - 40** imtahanda həm klassik suallar, həm də test tapşırıqları verilir<br>**Davamiyyət - 5** Davamiyyətə görə bal verilməsində tələbənin dərsdə ardıcıl iştirakı və dərsdə özünü qaydalara uyğun aparması nəzərə alınacaqdır. Üzürsüz buraxılan 2 dərs üçün 1 (bir) bal çıxılacaq<br>**İmtahan haqqında**<br>1. İmtahana hazırlaşarkən dərslərdə götürülmüş qeydləri öyrənməklə yanaşı, dərsin iş planında göstərilmiş ədəbiyyatlara, o cümlədən başqa mənbələrə də müraciət etmək lazımdır.<br>2. İstifadə ediləcək ədəbiyyatın bir qismi tərəfimizdən təmin ediləcəkdir.<br>3. Aralıq və Final imtahanlarında suallar, test və klassik şəkildə olacaq. |

**Cədvəl**

| | Tarix | Fənnin mövzuları | Dərslik/Tapşırıqlar |
|---|---|---|---|
| 1 | | Azərbaycan ədəbiyyatında romantizm mərhələsi.<br>H.Cavid romantizminin bədii-estetik xüsusiyyətləri. H.Cavidin lirikası (“Mənim tanrım”). | Müasir Azərbaycan ədəbiyyatı.2 cilddə, I cild. B.,BDU nəşri.2003, s.92-118.<br>Əhmədov B.XX yüzil Azərbaycan ədəbiyyatı.Mərhələlər.İstiqamətlər. Problemlər.B.,Elm və təhsil.2015.s.78-93 |
| 2 | | H.Cavidin dramaturgiyası: “Ana”, “İblis”, “Topal Teymur”, “Maral”, “Şeyx Sənan”, “Afət” əsərləri | Müasir Azərbaycan ədəbiyyatı.2 cilddə,I cild. B.,BDU nəşri.2003. s.133-155<br>.Əhmədov B.XX yüzil |

| | | | |
|---|---|---|---|
| | | | Azərbaycan ədəbiyyatı.Mərhələlər.İstiqamətlər.Problemlər.B.,Elm və təhsil.2015.s.78-93. |
| 3 | | C.Cabbarlının poeziyası (“Azərbaycan bayrağına”) və dramaturgiyası (“Solğun çiçəklər”, “Oqtay Eloğlu”, “Aydın”, “Od gəlini”, “Sevil”). | Qarayev Y.Azərbaycan ədəbiyyatı: XIX və XX yüzillər.B.,Elm,2002. s.527-556<br>Əhmədov B.XX yüzil Azərbaycan ədəbiyyatı.Mərhələlər.İstiqamətlər.Problemlər.B.,Elm və təhsil.2015.s.78-93 |
| 4 | | 1.A.Şaiqin poeziyası və nəsri. “Məktub yetişmədi”, “Ana-bacı”, “Köç” hekayələri.<br>2.A.Səhhətin yaradıcılığı: “Dəvət”, “Nitqi mənzum” şeirləri,”Təzə şeir necə olmalıdır” məqaləsi.<br><br>3.M.Hadinin lirikası : “Türkün nəğməsi”, “Biz nə haldayıq”, “Nəyimiz var” və s. | Müasir Azərbaycan ədəbiyyatı.2 cilddə, I cild. B.,BDU nəşri.2003, s.10-17.<br><br>Əhmədov B.XX yüzil Azərbaycan ədəbiyyatı.Mərhələlər.İstiqamətlər.Problemlər.B.,Elm və təhsil.2015.s.78-93 |
| 5 | | **Cümhuriyyət dövrü Azərbaycan ədəbiyyatı**<br>M.Ə.Rəsulzadənin bədii irsi (“Əsrimizin Səyavuşu”) Ə.Hüseynzadənin ədəbi-bədii fəaliyyəti (“Qırmızı qaranlıqlar içində yaşılk işıqlar )<br>Ə.Cavadın poeziyası. “Səsli qız” poeması.<br>M.Müşfiqin poeziyası “Oxu tar”, “Yenə o bağ olaydı”, “Yağış yağarkən” | Əhmədov B.XX yüzil Azərbaycan ədəbiyyatı.Mərhələlər.İstiqamətlər. Problemlər.B.,Elm və təhsil.2015,s.117-165<br>Qarayev Y.Azərbaycan ədəbiyyatı: XIX və XX yüzillər.B.,Elm,2002. s.483-498, s.622-624 |
| 6 | | **Azərbaycan ədəbiyyatında sosialist realizmi mərhələsi**<br>S.Vurğunun lirikası. Poemaları: “Komsomol”, “Aygün” əsərləri Dramaturgiyası. “Vaqif” dramı.<br><br>M.Cəlalın nəsri. “Bir gəncin manifesti” romanı. Hekayələri: “Həkim Cinayətov”, “Təzə toyun nəzakət qaydaları”, “Kəmtərovlar ailəsi”, “İclas qurusu”.<br><br>M.S.Ordubadi-tarixi roman ustası kimi. “Qanlı sənələr əsəri | Müasir Azərbaycan ədəbiyyatı.2 cilddə, I cild. B.,BDU nəşri.2003,s.192211,249-274,287-296. Qarayev Y.Azərbaycan ədəbiyyatı: XIX və XX yüzillər.B.,Elm,2002. s.609-620, Müasir Azərbaycan ədəbiyyatı.2 cilddə, I cild. B.,BDU nəşri.2003,s155- |

| | | | |
|---|---|---|---|
| | | | 170 |
| 7 | | M.İbrahimovun yaradıcılığı. Romanları və dramaturgiyası. Hekayələri: “Azad”, “İztirabın sonu”.<br><br>M.Hüseynin nəsri. “Yeraltı çaylar dənizə axır” romanı | Müasir Azərbaycan ədəbiyyatı.2 cilddə, I cild. B.,BDU nəşri.2003,s118133.<br>Müasir Azərbaycan ədəbiyyatı.2 cilddə, I cild. B.,BDU nəşri.2003 s.384-413, 429-438 |
| 8 | | **Aralıq imtahanı** | |
| 9 | | S.Rəhimovun nəsri.”Mehman” povesti | Müasir Azərbaycan ədəbiyyatı.2 cilddə, I cild. B.,BDU nəşri.2003,s118133. |
| 10 | | Y.V.Çəmənzəminlinin hekayələri. “İki od arasında” romanının təhlili | Müasir Azərbaycan ədəbiyyatı.2 cilddə, I cild. B.,BDU nəşri.2003,s.274-284 |
| 11 | | R.Rzanın poeziyası.<br>“Rənglər” silsiləsi. “Qızılgül olmayaydı” poeması.<br>Ə.Məmmədxanlının nəsri: “Bakı gecələri”, “Anamın ölümü”, “Buz heykəl”. | Müasir Azərbaycan ədəbiyyatı.2 cilddə, I cild. B.,BDU nəşri.2003,s330-339 |
| 12 | | İ.Əfəndiyevin nəsri. hekayələri: “Qəhrəmanla bülbülün nağılı”, “Daş hasar”, “Yarımçıq qalmış portret haqqında mahnı”. “Körpüsalanlar” povesti | Müasir Azərbaycan ədəbiyyatı.2 cilddə, I cild. B.,BDU nəşri.2003,s.4134294 |
| 13 | | İ.Əfəndiyevin dramaturgiyası. “Xurşudbanu Natəvan”, “Unuda bilmirəm”, “Sən həmişə mənimləsən”, “Mahnı dağlarda qaldı” əsərləri | Müasir Azərbaycan ədəbiyyatı.2 cilddə, II cild. B.,BDU nəşri.2003,s.296-312 |
| 14 | | Ə.Kərimin poeziyası<br>İ.İsmayılzadənin poeziyası | Müasir Azərbaycan ədəbiyyatı.2 cilddə, II cild. B.,BDU nəşri.2003,s.454-464 |
| 15 | | Bəxtiyar Vahabzadənin poeziyası. Poemaları.<br>Bəxtiyar Vahabzadənin dramaturgiyası:.”İkinci səs” **əsəri** | Müasir Azərbaycan ədəbiyyatı.2 cilddə, II cild. B.,BDU nəşri.2003,s.438-454 |
| 16 | | **Final imtahanı** | |